# Regionun gələcəyinə strateji baxış

## Dövlətimizin başçısı qlobal məsələlərdə ciddi təsir gücünə malikdir




*Əvvəli 1-ci səh.*

### Türkiyə-Azərbaycan müttəfiqliyi yeni üfüqlər açır

Tədbirin qələbəmizin rəmzi olan Şuşada keçirilməsinin özü böyük məna daşıyırdı. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa zəfərimizlə yanaşı, həm də sülhün rəmzidir. Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsinin imzalanmasından sonra bu şəhər daha bir möhtəşəm tarixi dəyər qazanmışdır. Azərbaycan Prezidenti forumdakı çıxışında bəyan etdi ki, bu gün Azərbaycan və Türkiyə qardaşlığı təkcə regionda deyil, dünyada məlum bir faktdır. İki ölkə arasında mövcud əlaqələr regional inkişaf və sabitlik baxımından çox mühüm amildir. Bu münasibətlər uzunmüddətli dostluq əlaqələri üzərində qurulub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi "Azərbaycan yalnız deyil!" bəyanatı bizim üçün çox böyük bir dəstək idi.

"İkinci Qarabağ müharibəsində qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətlərini rəsmiləşdirdi və biz bunu məhz Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq", - deyən dövlət rəhbərimiz qeyd etdi ki, bu bəyannamə xalqlarımız və ölkələrimiz üçün çox böyük sərvətdir və qarşımızda yeni üfüqlər açır.

Bu gün Türkiyə qlobal liderlərdəndir. Beynəlxalq nüfuzu ildən-ilə artan qardaş ölkənin həm ciddi məsələlərdə və xüsusilə bizim regionda təhlükəsizliyin, həm də inkişafın təmin edilməsində rolu çox önəmlidir. Şuşa Bəyannaməsi Azərbaycanın müstəqilliyi dövründə qardaş ölkələr arasında imzalanan, bir çox istiqamətlərdə strateji müttəfiqliyi, müxtəlif parametrləri əhatə edən çox mühüm sənəddir. Bəyannamə təkcə Azərbaycan və Türkiyə münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etmir. Bu sənəd ümumilikdə regionun gələcəyi üçün mühüm tarixi önəm daşıyır.

Müasir dünyamızda güc amilinin mühüm rolunu, beynəlxalq hüququn çox zaman çalışmadığını nəzərə alaraq Azərbaycan ordu quruculuğuna postmüharibə dövründə də xüsusi diqqət yetirir və müzəffər ordumuz Türkiyə modeli əsasında inkişaf etdirilir. Qardaş ölkə ilə müdafiə və müdafiə sənayesi sahələrində gələcək əməkdaşlıq planları da kifayət qədər genişdir. Bu planların tərkib hissəsi kimi, cari ildə 16 birgə hərbi təlimin keçiriləcəyi nəzərdə tutulub və onlardan 6-sı artıq keçirilib. 44 günlük Vətən müharibəsinə illərlə davam edən hazırlıqlarda, müharibənin gedişində, zəfərimizdən sonra Azərbaycanın tarixi qələbəsinin bütün dünyada qəbul olunması üçün görülən işlərdə, işğalçı Ermənistanla informasiya müharibəsində olduğu kimi, Türkiyə bu gün azad yurdlarımızın bərpası və yenidən qurulması prosesində də Azərbaycanın yanındadır. Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma işlərində yaxından iştirak edir. Türkiyə şirkətlərinin təcrübəsi, imkanları azad yurdlarımızda zəruri infrastrukturun qurulmasında, illərlə işğal altında saxlanmış torpaqlarımızın onilliklərdən sonra inkişaf axarına qovuşmasında özünəməxsus rol oynayır. Qardaş Türkiyə bu məsələdə də Azərbaycanla həmrəylik göstərir. Türkiyə ilə Azərbaycan quruculuq siyasəti ilə bölgədə təhlükəsizliyi, sülh və inkişaf mühitini bərqərar edir, xalqların birgə, rahat yaşaması üçün mühit formalaşdırır.

Güvən, qarşılıqlı etibar siyasətdə də yüksək qiymətləndirilən dəyərdir. Amma hər siyasət adamı bunları qorumağı bacarmır. Azərbaycan və Türkiyə liderləri isə öz dəyərlərinə sadiqdirlər. Bu güvən, etibar illərin çətin sınaqlarından çıxıb. Dövlət rəhbərlərimiz həm də Azərbaycan və Türkiyənin getdikcə güclənən bağlılıqlarına sədaqət göstərirlər. Qlobal proseslərə, regionun gələcəyinə baxışda mövqelərin üst-üstə düşməsi, gələcəklə bağlı aydın təsəvvürlərin, strateji niyyətlərin eyniyyəti, atılan addımların birgəliyi bu səmimi münasibətlərə mühüm töhfələr verir. Həm Azərbaycan, həm Türkiyə tarixən də, bu gün də türk dünyasının əsas mərkəzlərindəndir. Türk dünyasının iqtisadi, siyasi, mədəni nəbzi hər zaman bu coğrafiyalarda döyünüb.

### Azərbaycan-Rusiya münasibətləri

Azərbaycan ölkəmizlə bərabərhüquqlu münasibətlərdə, qarşılıqlı əməkdaşlıqda maraqlı olan bütün dövlətlərlə, o cümlədən Rusiya ilə də əlaqələri inkişaf etdirir. Ötən ilin fevralında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamədən sonra ölkələrimiz arasında münasibətlərin inkişafında yeni bir mərhələ başlanmışdır. Məlum olduğu kimi, müstəqilliyin ayrı-ayrı dövrləri Azərbaycan-Rusiya əlaqələrinin müxtəlif cür inkişafı ilə xarakterikdir. Bu sənəd də hər iki ölkənin uzun illər ərzində bəyan etdikləri kimi strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu münasibətlərin inkişafı tarixini əks etdirir.

2020-ci ilin 9 noyabrında Ermənistan və Azərbaycan üçtərəfli Bəyanatın imzalanmasına getdiyi zamanda məhz Rusiya tərəfinin birləşdirici rol oynadığını nəzərə alsaq, Azərbaycan və Rusiya arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin möhkəm təməle malik olduğunu görərik.

Hökumət başçıları, xarici siyasət qurumları, eləcə də digər hökumət və ictimai strukturların təmsilçiləri səviyyəsində təmaslar, bəyannamə imzalanan andan bəri Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişafının kifayət qədər uğurlu olmasına dəlalət edir. Ara-sıra Rusiya kütləvi informasiya vasitələrində Azərbaycana və Azərbaycan kütləvi informasiya vasitələrində Rusiyaya münasibətdə gördüyümüz kiçik narahatlıqlara isə dövlət rəhbərimiz konkret şəkildə öz fikrini bildirdi, qeyd etdi ki, bütün bunlar iki ölkənin siyasətinə heç bir təsir göstərmir.

Məlum olduğu kimi, Azərbaycan və Rusiya əlaqələrinin indiki mərhələsi Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar olaraq qonşu ölkə ətrafında yaranmış gərgin vəziyyət dövrünə təsadüf edir. Həmçinin İkinci Qarabağ müharibəsindən sonra bizim regionda da vəziyyət dramatik şəkildə dəyişib. Bütün bunlar, təbii ki, müxtəlif qiymətləndirmələr, təhlil və rəylər tələb edir. Lakin Azərbaycan Prezidenti hər zaman nümayiş etdirib ki, belə məqamlar Azərbaycan rəhbərliyinin siyasi iradəsinə təsir göstərmək gücündə deyil. Dövlətimizin başçısı xalqımızın, ölkəmizin milli maraqları, bölgəmizin gələcəyi ilə bağlı ən doğru qərarları verir, ən düzgün mövqeyi ortaya qoyur. Azərbaycan Prezidenti Rusiya ilə münasibətlərimizin gələcəyinin də ötən illərdə olduğu kimi, müsbət və uğurlu olacağına inamını ifadə etdi.

### Qarşılıqlı etimad üzərində qurulan Azərbaycan-Çin əlaqələri

Çin dünyanın ən böyük dövlətlərindən biridir. Bütün ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq yaratmaq prinsipini əsas tutan Azərbaycan Respublikası Çinlə də siyasi, hərbi, iqtisadi, mədəniyyət və digər istiqamətlərdə sıx əməkdaşlıq yaratmağa nail olmuşdur. Bu əməkdaşlıq əlaqələri indi də davamlı olaraq həyata keçirilir.

Prezident İlham Əliyev Çinin "China Media Group" Media Korporasiyasına verdiyi müsahibədə Azərbaycanla Çin arasında olan mehriban dostluq münasibətlərindən, praktiki iş birliyindən, eyni zamanda gələcəkdə Azərbaycan və Çini bir-birinə uzun müddət dayanıqlı şəkildə yaxınlaşdıracaq fəaliyyətdən söhbət açılıb. "Bu gün əməkdaşlığın gündəliyi 30 il əvvəlkindən daha genişdir", - deyən dövlətimizin başçısı xüsusi vurğulayıb ki, ikitərəfli əlaqələrdə əldə etdiyimiz nailiyyətlər çox uzun bir yolun başlanğıcıdır. İndi regionun siyasi, eyni zamanda nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda görürük ki, ölkəmiz bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış edir. Prezident İlham Əliyev beynəlxalq gündəliyə aid təməl məsələlərindən danışarkən bildirib ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq məsələlərində üst-üstə düşür.

Beynəlxalq nüfuzun göstəricisinə gəldikdə isə, hazırda bütün dünyada Çinin dostlarının sayı ildən-ilə artır. Getdikcə böyüyən iqtisadiyyatı, siyasi iradəsi ilə Çin qlobal proseslərdə zaman keçdikcə daha geniş rola malik olur və rəsmi Pekinin siyasi-iqtisadi mənzərəyə təsir imkanlarının zamanla daha da güclənəcəyi isə şübhə doğurmur. Eyni zamanda onu da qeyd edək ki, bəşəriyyət üçün kritik anlarda Çinin davranışlarının digər böyük güclərlə müqayisədə daha ədalətli, insanyönümlü olduğu görünməkdədir. Məsələn, pandemiya dövründə öz ehtiyaclarından qat-qat artıq vaksin toplayaraq xüsusilə kasıb ölkələrin vətəndaşlarını taleyin ümidinə buraxan, onların kütləvi ölümünə yol açan, vaksini də əldə təzyiq alətinə çevirmək niyyətində görünən Avropa ölkələrindən, ABŞ-dən fərqli olaraq Çin həm öz vətəndaşları arasında kütləvi peyvəndlənmə apardı, həm də paralel şəkildə digər ölkələrə vaksin ixracını həyata keçirdi.

Eyni vəziyyət texnologiyalara da aiddir. Çin sənayesi, bu ölkənin başqa ölkələrlə tərəfdaşlığa açıqlığı və bütün dünyaya ixrac etdiyi texnoloji məhsullar rəqəmsal imkanları hər kəs üçün əlçatan edir. Belə bir ölkə ilə münasibətlərin daim inkişafı, qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın milli dövlətçilik maraqlarına daxildir.

### Ölkəmizə qarşı potensial təhlükə görmürük

"Torpaqlarımızı azad edəndən sonra ölkəmizə qarşı potensial təhlükə görmürük", - deyən Azərbaycan Prezidenti I Şuşa Qlobal Media Forumunda bəyan etdi ki, daxildə hər hansı bir təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir. Azərbaycan iqtisadi gücü, resursları ilə özünü təmin edə bilir, ölkədə yaxşı idarəçilik mövcuddur. Bununla belə dövlət rəhbərimiz həmişə ayıq olmaq və keçmişimizi yaddan çıxarmamaq, illər öncə yaranmış vəziyyətdən istifadə edərək qonşularımız tərəfindən kürəyimizə qəfil bıçaq sancılmasını, ərazilərimizin işğal edilməsini unutmamaq zərurətini də diqqətə çatdırdı.

Bu zərurəti şərtləndirən hazırda Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində hələ də revanşist ideyalarla yaşayan ünsürlərin mövcudluğudur. Bunun müqabilində Azərbaycan da özünü bütün ssenarilərə hazırlayır. İkinci Qarabağ müharibəsi bitən kimi müdafiə sahəsində dərin islahatların həyata keçirilməsi bununla bağlıdır. Ali Baş Komandanın bəyan etdiyi kimi, bu gün ordumuz üç il əvvəlkindən də güclüdür. Bu yüksələn güc ona görə mövcuddur ki, ona ehtiyac var. Azərbaycan illər uzunu beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasından, beynəlxalq hüququn selektiv şəkildə tətbiqindən əziyyət çəkib. Haqlı ikən, haqsız kimi qəbul olunub. İşğala məruz qalmış tərəfkən, beynəlxalq güclər Azərbaycana deyil, işğalçı Ermənistana tərəf çıxıb. Əfsuslar olsun ki, müasir dünyamızda beynəlxalq hüquq normalarına münasibət daha da pisləşir, beynəlxalq hüquq öz gücünü, işləkliyini itirir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər əhəmiyyətə malik olmayanda isə sülhün təminatı yalnız gücdür. Azərbaycan da regionda sülhə nail olmaq, bölgəmizi revanşistlərin doğurduğu təhdidlərdən qorumaq üçün gücünü artırır. Torpaqlarımızın təxminən 30 illik işğalı və 44 günlük Vətən müharibəsinin nəticələri də göstərdi ki, "dəmir yumruq" rəsmi İrəvanın ən yaxşı anladığı dildir.

### Qarabağ Azərbaycandır!

Regional inkişaf bu gün əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılı olduğundan ölkəmiz əbədi sülhə nail olmaqdan ötrü bütün imkanları dəyərləndirməyə çalışır. Hazırda üç beynəlxalq tərəf - ABŞ, Rusiya və Avropa İttifaqı sülh prosesinə dəstək üçün müəyyən fəaliyyət göstərir. Azərbaycan isə üç istiqamətin hər biri üzrə tam səmimiyyətlə bu prosesə qatılaraq nəticəyönümlü yanaşma ortaya qoyur. Bununla yenə də sülh prinsiplərinə sadiqlik nümayiş etdirir. Müvafiq beynəlxalq təşkilatlar iki ölkə arasında qarşılıqlı şəkildə qəbul oluna biləcək həllin tapılmasında yardım göstərməyə çalışırlar. Onların bu həllərin beynəlxalq hüquqa əsaslanmalı olduğunu anlaması təqdir ediləcək reallıqdır. Artıq Ermənistan rəsmiləri də Qarabağın Azərbaycan ərazisi olması barədə birbaşa bəyanatlar verirlər və bu, Vətən müharibəsindən sonrakı təxminən 3 ilin əsas nəticələrindən sayıla bilər. Fakt budur ki, rəsmi Bakı və rəsmi İrəvan artıq sənədi imzalamaq mərhələsinə yaxınlaşıb. Azərbaycan Prezidentinin də bəyan etdiyi kimi, əgər bu addım atılsa və Ermənistan Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, bu sazişin ilin sonunadək imzalanması kifayət qədər mümkündür.

Dövlətimizin rəhbəri Qarabağda hakimiyyəti ələ keçirmiş xuntanın artıq hər kəsdə gülüş doğuran fəaliyyətinə də münasibət bildirib. Onların Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayanları girov götürdüklərini qeyd edərək özünü "prezidentlər" adlandıran şəxslərin çadırlarda oturaq tətil keçirməsini komediya şousu, lətifə adlandırıb. Eyni zamanda Qarabağ ermənilərinin nümayəndələri ilə Bakıda təmaslara iki dəvətdən və separatçıların bundan nümayişkəranə şəkildə imtinasından sonra daha üçüncü cəhdin olmayacağını qəti şəkildə diqqətə çatdırıb.

Baş verən proseslərin, ortaya qoyulan mövqelərin, göstərilən təşəbbüslərin şərhi də bir daha təsdiqləyir ki, rəsmi Bakı indiyə qədər haqsız sayıla biləcək hər hansı addıma yol verməyib. Sərhəddə nəzarət-buraxılış məntəqəsinin qoyulması da tam legitim qərar və postmünaqişə dövrünün mühüm mərhələsi kimi şəraiti əhəmiyyətli dərəcədə dəyişib.

Qarabağdakı erməni azlığının hüquq və təhlükəsizliyi məsələsinə gəlincə isə, Azərbaycanın bununla bağlı mövqeyi dəyişməz qalır. Azərbaycan dövləti Konstitusiya əsasında və bu məsələlərin necə həll edilməsi üzrə xeyirxah təcrübə çərçivəsində yenidən inteqrasiya yolu ilə irəliləməyə hazırdır. Prezident İlham Əliyev bunu I Şuşa Qlobal Forumundakı çıxışında bir daha bəyan etdi. Vurğuladı ki, çoxmillətli və çoxkonfessiyalı dövlət olan Azərbaycanda yaşayan etnik qrupların bütün nümayəndələri eyni hüquq və vəzifələrə, təhlükəsizlik səviyyəsinə malikdirlər. Qarabağdakı erməni icmasının sülh danışıqlarına hər hansı bir şəkildə daxil edilməsi isə mümkünsüzdür. Ermənistan Qarabağda yaşayan erməni əhalisinin hüquqları haqqında danışırsa, biz Zəngəzurda və Göyçədə, İrəvanda azərbaycanlıların hüquqları haqqında danışmalıyıq və bu, qarşılıqlı şəkildə olmalıdır.

Azərbaycan Prezidenti azad yurdlarımıza Böyük qayıdış proqramının icrası vəziyyəti barədə də məlumat verdi və bildirdi ki, həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insan öz doğma el-obasına qaytarılacaq. 30-dan çox şəhər və kəndin baş planı artıq təsdiqlənib. Bir çox kəndlərin təməli qoyulub. Bu günə qədər infrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təqribən 7 milyard ABŞ dollarına bərabər olacaq. Birinci mərhələdə əsas vəzifə 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Laçın şəhəri cəmi səkkiz ay ərzində tamamilə yenidən qurulub, həm fərdi, həm çoxmənzilli evlər tikilib və orada 700-dən çox ailə üçün indi hər cür şərait var. Sentyabrın 15-dək Laçında məktəb, uşaq bağçası, xəstəxana da hazır olacaq. Növbəti beş il ərzində azad edilmiş bütün şəhərlərdə artıq insanlar yaşayacaqlar. Baş plana görə, Ağdam şəhərində 100 minə yaxın insan məskunlaşacaq. Bütün bunlar mərhələli şəkildə ediləcək. Çünki vəsait o zaman xərclənməlidir ki, artıq insanlar ora getməyə hazır olsunlar.

Bütün bu qeyd edilənlər gələcək inkişaf, milli hədəflərə doğru irəliləmək üçün aydın yol bələdçisidir. Azərbaycan getdikcə yüksələn iqtisadi gücü, maddi-mənəvi potensialı ilə bütün problemləri yoluna qoyacaq və Cənubi Qafqazın lider ölkəsi kimi regionumuzun sülh və inkişaf məkanına çevrilməsinə nail olacaq. Dövlət rəhbərimizin gələcəyə aydın strateji baxışı, qətiyyəti, siyasi iradəsi, ali arzu və amalları buna tükənməz ümidlər yaradır.

**İradə ƏLİYEVA,**
**"Azərbaycan"**